# Əbədi Ünvanın sakini

**Doğulanda adını Dilsuz qoydular. Amma onun taleyi elə gətirdi ki, dilinə görə dilçəyi də oldu, özünə görə cəngavərliyi də, mərdliyi də, qeyrəti, şücaəti də... Bu bir Tanrı vergisi idi, hər kişiyə qismət olmayan Tanrı vergisi. Ona görə də həm boyu-buxunu, həm davranışı, həm də hadisələrə, həyata baxışı onun vergili olduğunun özü-özlüyündə sübut edirdi. Hələ orta məktəb illərindən Qarabağda, bütövlükdə bölgədə baş verən hadisələri bir dəliqanlılıqla izləyən Dilsuz hər yerdə, hər kəsin yanında buna bir son qoyulacağını, düşmənin yerində oturdulacağını əminliklə dilə gətirirdi. Bu cavan oğlanın içindəki Vətən sevgisi elə bil ki, qaynayab daşırdı**



... Onu "Şuşa!", "Ağdam", Kəlbəcər" həsrəti elə havalandırırdı ki, bəzən valideynləri də, dostları da ona təəccüblə, heyrətlə baxırdılar. Sanki cismi evdə, ailənin yanında, ruhu isə işğal alıtındakı torpaqlarımıza, həsrətini çəkdiyimiz dağlara uçub getmişdi...

Deyirlər ki, bəxt, tale insanla birgə doğulur, onun da bəxtinə Ağcəbədinin Hindarxında doğulmaq düşmüşdü. Bu kəndin döyüş ruhu özünü müharibənin " daş" dövründən təsdiq etmişdi. Kənddəki şəhidlər xiyabanı, orada uyuyan qırx igidin and yeri olması artıq Dilsuzu da şəhidlik zirvəsinə gedən yola yönəltmişdi. Hər dəfə o igidlərin məzarı önündə keçəndə bir anlıq dayanır və sanki ürəyində "qisasınızı alacam!" deyirdi. Zaman göstərdi ki, o içində dediyini sübut etmək qüdrətində imiş.

Belə ki, 2016-cı ilin tariximizə yazdığı şanlı aprel səhifəsində Dilsuz Məmmədağa oğlu Qarayevin də imzası qırmızı hərflərlə yazıldı. Qan rəngində yazılmış bu imza 2 aprel 2016-cı ilə təsadüf edir. Həmin tarix təkcə Qarayevlər ailəsinin deyil, bütövlükdə Ağcabədinin, xüsusilə Hindarxında yaşayan hər kəsin bir şərəf və qələbəyə inam günü kimi qeyd olundu. Ona görə ki, Dilsuz şəhidlik zirvəsinə ucalmaqla bahəm, şanlı aprel səhifəsinə doğulduğu kənidn də, el-obanın da adını yazdı. İndi tarixləşən aprel döyüşünün qəhrəmanlarından biri kimi oxuduğu məktəbdə də, yaşadığı kənddə də, eləcə də bütün Azərbaycanda onu hər kəs tanıyır. Çünki onun ruhu Şuşadadır, Kəlbəcərdədir, Qarabağdadır!.. Çünki Azərbaycan prezidenti, ali baş komandanımız İlham Əliyev cənablarının sərəncamı ilə "Hərbi xidmətdə fərqlənməyə görə " III dərəcəli medala layiq görülmüş gizir Dilsuz Məmmədağa oğlu Qarayev bizim döyüş səlnaməmizin əfsanəvi qəhrəmanlarından biridir. O, özünün rəşadətli yolu ilə təkcə qəhrəman kimi yox, həm də bir nümunə kimi fərqlənmişdir. Belə ki, Dilsuzun həm valideynləri, həm zabit yoldaşları, həm də tabeliyində olan əsgərlər birmənalı şəkildə qəhrəmanlıq şahidi oldular. Bu şəhidlik dərsi hər kəsin içindəki Vətən sevgisini bir daha alovlandırdı. Və bir anlıq hər kəs xatırladı ki, 1990-cı ildə Ağcabədi rayonunnun Hindarxı kəndində doğulmuş Dilsuz atasının, anasının, bütün doğmalarının qəlbində bir övlad dağı olmaqla yanaşı, həm də bir qürur yeri, bir ucalıq ünvanı kimi də özünə əbədi ömür qazandı. Bu ömrün adı qəhrəmanlıq, bu ömrün mükafatı şəhidlikdir.



**Ruhun şad olsun, Əbədi Qəhrəman!**

**Hər bir şəhid Vətənin bir parçası deməkdir. Vətən isə hər birimizin and yeri olmaqla bahəm, həm də əbədi ünvanımızdır. Deməli, şəhidlərimiz də, onlardan biri olan Dilsuz da əbədi ünvanlarımızdan biri olaraq bütün zamanlarımızda yaşayacaqdır!**

**Əbülfət MƏDƏTOĞLU**

Ədalət.- 2020.- 7 fevral. S. 2.